

Südabə Hüseynqızı

## 20 YANVAR

Tarix 1990-cı il 20 yanvar,
Gecə yarısıdır, əsir sərt rüzgar,
Nə şəhər yatıbdır, nə də insanlar,
Titrəyir soyuqdan uca çinarlar.

İldırımlar çaxdı, söndü ulduzlar,
Bakıda çox böyük bir təhlükə var.
Heç bir şey bilən yox, donub qalıblar,
Yağdı başımıza göydən bombalar.

Düşmən qarşısına çıxdı igidlər,
Vətəni, torpağı qorusun deyə.
Neçə qurban verdik, düşdü itkinlər,
Milləti firavan yaşasın deyə.

Torpaq basılmazdı, verilməz Vətən,
Nə qədər qürbətdə yaşasamda mən
Bir can borcum var Azərbaycana
Torpağın adına ləkə gətirməm




## TÜRK

Tarixlərdən qalıb bizə yadigar,
Türk torpağındakı o qəhrəmanlar,
Unudularmı heç paşalar, şahlar,
Yaşayır daima onlar bizimlə,
Nə mutlu dünyada Türkəm deyənə.

İgid əsgər, bənzər Ulu Ataya
Bugünkü qisası qoyma sabaha,
Qurbanlar dedik, Türk ordusuna
Get düşmən üstünə, dönmə geriyə
Nə mutlu dünyada Türkəm deyənə.

Analar! Böyüdün öz körpənizi,
Qoy dünya tanısın Türk əsgərini,
Uca tut bayrağı, çal zəfərini,
Tutduğun haqq yolda dönmə geriyə.
Nə mutlu dünyada Türkəm deyənə

Qəhrəmanlıq nışanı taxaq döşünə.
Ləyaqətli övlad olaq Vətənə.
Gəlməmişik ömrü verək hədərə,
Qardaş olaq könül verək sevənə.
Nə mutlu dünyada Türkəm deyənə.

Sevgi nur salıb yollarımıza,
Tanrı güc verib qollarımıza,
Çəkilib ay-ulduz bayrağımıza,
Səadət bəxş edib ulduzlar bizə,
Nə mutlu dünyada Türkəm deyənə



kaspi.-2017.-14-16 yanvar.-S.23.